# Uca dağlar başında

## Laçın Beynəlxalq Hava Limanının istifadəyə verilməsinə çox zaman qalmayıb

Bir neçə gün əvvəl Şuşa şəhərində Azərbaycanın işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı yaradılmış Əlaqələndirmə Qərargahının İdarələrarası Mərkəzinin nəzdində fəaliyyət göstərən nəqliyyat, rabitə və yüksək texnologiyalar üzrə İşçi Qrupunun növbəti iclası keçirilmişdir.

Tədbirdə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nda nəqliyyat və rabitə infrastrukturu üzrə qarşıya qoyulmuş tapşırıqların icrası ilə bağlı görülmüş işlər, hazırda davam edən layihələr və gələcək planlara dair əlaqədar qurumların məlumatları dinlənilmiş, layihələrin icrası ilə bağlı mövcud imkanlar, qarşıya çıxan çətinliklər və onların həlli yolları geniş müzakirə olunmuşdur. İclası giriş sözü ilə açan rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini, İşçi Qrupunun rəhbəri Rəhman Hümmətov qeyd etmişdir ki, Laçın Hava Limanının tikintisi üzrə işlər sürətlə davam edir. Hazırda layihə üzrə işlərin ümumi icra vəziyyəti 53 faizdir.

Laçın əhəmiyyətli geostrateji mövqeyə malik bir bölgədir. Ötən 30 ildə Ermənistanın işğalçılıq siyasəti nəticəsində rayonun tarixi abidələrinə çox böyük ziyan dəyib. 54 dünya əhəmiyyətli tarixi abidə erməni vandalizminin qurbanı olub. 200-dən çox yerli əhəmiyyətli, o cümlədən VI əsrə aid olan Alban Ağoğlan məbədində, XIV əsr nümunəsi Məlik Əjdər türbəsində, Qaraqışlaq kəndindəki məsciddə, Zabuxdakı qəbiristanlıqda işğalçılar vəhşiliklər törədiblər. Tarix muzeyində mühafizə edilən qızıl, gümüş və tunc sikkələrdən ibarət qədim kollekisiyanın aqibəti də ağrılıdır - hamısını daşıyıb aparıblar.

Bu gün isə işğaldan azad olmuş digər rayonlar kimi, Laçın da yenidən qurulur. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev Laçının yaşayış məntəqələrinin bərpası, elektrik enerjisi, təbii qaz, su, rabitə, yol, təhsil, səhiyyə, mədəniyyət, mənzil-kommunal və digər zəruri infrastrukturlarla təminatı, yaşayış evlərinin tikintisi və s. işlər üçün operativ tədbirlər görür və bununla Laçına Böyük qayıdışı təmin edir.

İllərlə mənfur düşmənin tapdağı altında qalmış Laçın torpaqlarından düşmənin izini silmək üçün görülən nəhəng işlərdən biri də hava limanının tikintisidir. Laçın Beynəlxalq Hava Limanı dəniz səviyyəsindən xeyli hündürdə inşa edilir. Uçuş-enmə zolağının uzunluğu 3 kilometr olan limanda 6 təyyarə dayanacağı olacaq. Adətən, hava limanları düzəngah yerlərdə tikilir. Laçında isə belə yerlər olmadığı üçün Ovçu kəndi seçilib. Prezident İlham Əliyev 2022-ci il iyunun 26-da hava limanının tintisi ilə tanış olarkən deyib: "Bu hava limanının tikintisinin ən çətin tərəfi Laçın rayonunda və Kəlbəcər rayonunda düz yerin olmamasıdır. Biz dağları yarırıq, dağları kəsirik ki, zolaq üçün uyğun şərait yaradılsın. Ona görə bu torpaq işləri hələ gələn il də davam edəcək. Ümid edirəm ki, 2024-cü ildə Laçın rayonunda beynəlxalq hava limanı açılacaq və ondan sonra gediş-gəliş daha rahat olacaq. Əminəm ki, bu bölgə turizm zonası olacaq. Çünki burada olan təbii gözəllik heç bir yerdə yoxdur. Təbii gözəllik - çaylar, bulaqlar, meşələr - biz bütün bu sərvətdən məhrum idik, ermənilər bizim xalqımızı məhrum etmişdilər. Otuz il ərzində bizim təbii sərvətlərimizi istismar edir, ağaclarımızı kəsirdilər. Çaylarımızı zəhərləyir, binalarımızı sökür, qızıl yataqlarımızı qanunsuz istismar edirdilər. Hər şeyi qanunsuz edirdilər".

Ovçuda tikilən bu aeroportun üstünlüyü ondadır ki, Laçın şəhərinə məsafə 30, Kəlbəcər şəhərinə 60 kilometr civarındadır. Şuşanı isə hava limanından 70 kilometrlik məsafə ayırır. Bu, o deməkdir ki, gələcəkdə Şuşaya təyyarə ilə getmək üçün həm Füzuli, həm də Laçın Hava limanlarından istifadə etmək mümkün olacaq.

Saatda 200 sərnişinə xidmət edə biləcək hava limanı bölgənin sosial-iqtisadi inkişafına təkan verəcək, turizm potensialından istifadəyə səbəb olacaq. Liman həm də regiona yükdaşımaların asanlaşmasında mühüm yer tutacaq. Xüsusilə beynəlxalq yükdaşımalarda əhəmiyyət kəsb edən Laçın Hava Limanı istehsal olunan sənaye məhsullarının dünya bazarlarına daha sürətlə çatdırılmasına imkan verəcək. Laçın Hava Limanının hərbi əhəmiyyəti də az deyil. Bunu şərtləndirən 10 noyabr Bəyanatından sonra da təxribatlarını davam etdirən Ermənistanın Kəlbəcər və Laçına yaxın ərazisində hava limanının olmasıdır.

Ərazidə aparılan işlərlə tanış olmaq üçün İlham Əliyev iki dəfə bölgəyə səfər edib. Dünyanın gözü önündə işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurda tez bir zamanda beynəlxalq hava limanlarının tikilib istifadəyə verilməsinə heyrət edənlərə, yaxud həsəd aparanlara, inanmayanlara Prezidentin cavabı belədir: "Bəziləri bunu möcüzə hesab edirdilər. Çünki sovet dövründə heç vaxt bu bölgədə - Kəlbəcər-Laçın zonasında hava limanı olmayıb. Məhz bu səbəbə görə. Çünki çox bahalı bir layihə ola bilərdi və məqbul yer də tapmaq mümkün deyil. Ancaq biz bunu edirik. Müstəqil Azərbaycan dövləti buna da qadirdir. Buna texniki imkanlarımız da, maliyyə imkanlarımız da və güclü iradəmiz də var".

Prezident İlham Əliyevin təbirincə desək, dünya tarixində belə relyefdə ilk dəfə tikilən Laçın Beynəlxalq Hava Limanının açılışı 2024-cü ilin sonu, 2025-ci ilin əvvəlinə nəzərdə tutulub.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2023.- 25 noyabr, № 257.- S.15.